Azərbaycan.- 2021.- 13 aprel. S. 11.

# Azərbaycanla Əfqanıstan arasında siyasi, iqtisadi, mədəni və dini-mənəvi əlaqələr önəm kəsb edir

Aprelin12-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Əfqanıstan İslam Respublikasının Azərbaycandakı səfiri Amanullah Ceyhun ilə görüşüb.



İdarənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, səfiri səmimi salamlayan QMİ sədri A.Paşazadə Azərbaycanla Əfqanıstan arasında dostluq, qardaşlıq münasibətlərinin dövlətlərimizin, xalqlarımızın mənafelərinə uyğun yüksələn xətlə inkişafını məmnuniyyətlə qeyd edib. O, ölkəmizə yeni təyin olunmuş Əfqanıstan səfirinin bu əlaqələrin daha da dərinləşməsinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirib və səfirə fəaliyyətində xeyir-dualar diləyib.

Əfqanıstan dövlətinin şanlı Vətən müharibəsi dövründə Azərbaycana mənəvi dəstəyini və qardaş həmrəyliyini yüksək dəyərləndirən QMİ sədri A.Paşazadə Azərbaycanla Əfqanıstan arasında siyasi, iqtisadi, mədəni və dini-mənəvi əlaqələrin önəm kəsb etdiyinə və davamlı inkişaf etdirilməsinin vacib olduğuna diqqəti çəkib.

Səfir Amanullah Ceyhun Qafqazın, Azərbaycanın nüfuzlu dini lideri ilə görüşmək fürsətinə görə minnətdarlığını bildirib və Əfqanıstan İslam Respublikasının Həcc, İrşad və Vəqflər naziri Məhəmməd Qasem Həliminin səmimi salamlarını QMİ sədri A.Paşazadəyə yetirib.

Şeyxülislam A.Paşazadə Əfqanıstanın din rəsmilərinin QMİ tərəfindən keçirilən beynəlxalq tədbirlərdə hər zaman yaxından iştirakını məmnunluqla qeyd edib, hazırda bu əməkdaşlığın onlayn formatda davam etdirildiyini vurğulayaraq, pandemiya bitdikdən sonra bilavasitə görüşlərin davam edəcəyinə ümidvar olduğunu bildirib.

Görüşdə qırx ildən artıq Şeyxülislam məqamında fəaliyyət göstərmiş A.Paşazadənin sovetlər dönəmindən Əfqanıstanla dini-mənəvi əlaqələrin yaranmasında rolu xüsusi xatırlanıb.

Azərbaycan Prezidenti İlham Əliyevin səyləri sayəsində tarixən bağlılıqları olan Azərbaycanla Əfqanıstan arasında qardaşlıq münasibətlərinin və dövlətlərarası müstəvidə əlaqələrin inkişaf etdiyi dönəmdə dövlətinin Azərbaycanda təmsilçisi olmaq şərəfinə malik olduğundan məmnunluğunu ifadə edən səfir ölkələrimiz arasında islami həmrəylik çərçivəsində dini-mənəvi əlaqələrin inkişafının prioritetlərdən olduğunu qeyd edib. Şeyxülislam A.Paşazadə səfirə bu istiqamətdə səylərinə görə təşəkkür edib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam A.Paşazadə qarşıdan gələn Ramazan ayının Azərbaycan və Əfqanıstan xalqları, dövlətlərimiz üçün yeni uğurlara vəsilə olması üçün dualar edib, ən xoş arzularını bildirib.